# Bu gün bölgənin strategiyasını və gələcəyini yeni Azərbaycan doktrinası müəyyən edir



**"Azərbaycanın 44 günlük Zəfər yürüşündən sonra Prezident İlham Əliyevin də dediyi kimi, Cənubi Qafqazda işğala əsaslanan status-kvo dağıdıldı. Yeni, mövcud status-kvo Azərbaycan və Türkiyənin əməkdaşlığı nəticəsində imzalanan Şuşa Bəyannaməsi ilə yaradıldı. Bununla əlaqədar ermənilərin havadarları Ermənistanı Azərbaycana qarşı yeni müharibəyə ruhlandırmaq və Qarabağla bağlı iddialarını yenidən dirçəltmək üçün fəaliyyətə keçdilər. Burada Avropa İttifaqı daxilindəki ermənipərəst dairələr, o cümlədən Fransadakı erməni lobbisi və ABŞ erməniləri daha çox fəallıq göstərirlər. Baş nazir Nikol Paşinyan hər nə qədər davamlı sülhü dəstəkləsə də, Ermənistanın daxilində və xaricdəki lobbisi buna qarşı çıxır".**

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Türkiyə mediasının təmsilçisi, siyasi ekspert Güngör Yavuzaslan söyləyib. Qərbi Azərbaycan İcmasının bəzi Qərb dairələrinin Azərbaycan əleyhinə bir sıra erməni separatçıları ilə təmaslarını aktivləşdirmələrinə dair bəyanatını şərh edən Güngör Yavuzaslan deyib: "Bəyanatda da qeyd edildiyi kimi, hazırda qatillər və irqçilər ilə təmas quran Qərb qüvvələri var. Bu nümunələrdən sonuncusunu Ermənistanın suverenliyinə və torpaq bütünlüyünə qarşı çıxmayan Qərbi Azərbaycan İcması ilə təmaslardan qaçan, lakin Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü açıq şəkildə təhdid edən Xocalı qatili, irqçi Robert Koçaryanın dəstəsindən olan Oskanyan kimilərlə təmaslarını aktivləşdirən Avropa İttifaqının Cənubi Qafqaz üzrə nümayəndəsi Toyvo Klaarın simasında gördük. Lakin onların bütün səyləri boşboğazlıqdan başqa bir şey deyil. Belə insanları biz medianın dili ilə desək, "heç bir təsiri olmayan kadr" adlandırırıq".

Bu gün bölgənin strategiyasını və gələcəyini Prezident İlham Əliyevin yaratdığı yeni Azərbaycan doktrinasının müəyyənləşdirdiyini söyləyən ekspert vurğulayıb: "Bu yeni Azərbaycan doktrinası Rusiya Prezidenti Vladimir Putini ölkəsində qəbul etmək, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla birgə strategiyalar ortaya qoymaq, Türk Dövlətləri Təşkilatı daxilində yeni mövqe nümayiş etdirərək Şimali Kipr Türk Cümhuriyyətinin bayrağını Bakıda dalğalandırmaqdır. Yəni bölgənin hazırkı strategiyası Prezident İlham Əliyevin baxışına doğru istiqamətlənir. Bütün bunlar yeni dövrün şifrələridir".

"Qərbin Ermənistan sevdası Rusiya-Ukrayna müharibəsindən sonra bölgədə yeni həssas nöqtə yaratmaqdır. Buna görə də bəzi Qərb dairələrinin bu istiqamətdə addımlarını davam etdirəcəyini düşünürəm. Bu, Ermənistanın silahlandırılması, yaxud müxtəlif diplomatik yollardan istifadə edərək mövzuya qarışması ilə də ola bilər. Lakin əsas məqam odur ki, qondarma "Dağlıq Qarabağ respublikası" artıq çoxdan tarixin yaddaşına köçüb. Bundan sonrakı strategiya və təhlükəsizliyi isə yeni doktrina müəyyən edəcək ki, onun da adı Yeni Azərbaycandır", - deyə ekspert diqqətə çatdırıb.